https://doi.org/10.59849/3006-1342.2026.2.141
UOT 80

*Elmira Məhərrəm qızı Şirinova*
*AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu*
*Elmi işçi*
*Aynurə Kamran qızı Əliyeva*
*AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu*
*Laborant*
*E-mail: aynura374@mail.ru*

# AZƏRBAYCAN XALQ MƏDƏNİYYƏTİNDƏ AİLƏ-MƏİŞƏT MƏRASİMLƏRİ

*Şifahi xalq ədəbiyyatında mühüm yer tutan sahələrdən biri də ailə və məişət mərasimləridir. Bu mərasimlər müxtəlif forma və məzmunu ilə seçilir. Laylalar və oxşamalar məişət nəğmələrinin ən geniş yayılmış növlərindəndir. Azərbaycan xalq ədəbiyyatında mərasim nəğmələrinin çoxu məişət mərasimləri zamanı yaranmışdır. Ailə və məişət mərasimləri ilə bağlı oxunan nəğmələr müəyyən adət-ənənələr və hadisələrlə əlaqəli olur. Bu nəğmələr xalqın sevincini, kədərini və arzularını ifadə edir. Məişət mərasimi nəğmələrinin bir hissəsi də adqoyma mərasimləriilə bağlıdır. Ümumiyyətlə, adqoyma folklorda mühüm motivlərdən biri hesab olunur. Ehtimal edilir ki, bu mərasim çox qədim dövrlərdən insanların həyatında mövcud olmuşdur. Qonaq qarşılamaq xalqımızın qədim və gözəl adətlərindən biridir. Bu ənənə zamanın sınağından keçərək günümüzə qədər gəlib çatmışdır. Qonaq qarşılamaq sadə görünsə də, əslində böyük məsuliyyət tələb edir. Ev sahibi qonağı yaxşı qarşılamalı, ona diqqət göstərməli və hörmətlə yola salmalıdır. Xalqımızın qonaqpərvərlik adəti hər zaman ən mükəmməl şəkildə yerinə yetirilmişdir. Buna görə də qonaqpərvərlik xalqımızın ən dəyərli xüsusiyyətlərindən biri hesab olunur.*

*Açar sözlər:* ailə, məişət mərasimləri, şənliklər, adət-ənənələr, adqoyma mərasimi

## *Giriş*

Azərbaycan xalqının zəngin mənəvi dünyasını, əsrlər boyu qoruyub saxladığı adət-ənənələri və ailə-məişət dəyərlərini çox gözəl ifadə edir. Qeyd etdiyiniz kimi, şifahi xalq ədəbiyyatı ilə məişət mərasimləri bir-biri ilə sıx bağlıdır və xalqın daxili dünyasını əks etdirir. Şifahi xalq ədəbiyyatında mühüm yer tutan sahələrdən biri də ailə və məişət mərasimləridir. Xalq ədəbiyyatında mərasim nəğmələrinin çoxu məişət mərasimləri zamanı yaranmışdır. Bu mərasimlər müxtəlif formada olduğu kimi müəyyən adət-ənənələr və hadisələrlə əlaqəli olur. Məişət nəğmələrinin ən geniş yayılmış növlərindən laylalar və oxşamalar məişət nəğmələrinin ən bariz nümunələridir. Məişət mərasimlərinə aid olan bu nəğmələr də xalqımızın sevincini, kədərini və arzularını ifadə edir.

Zamanın sınağından keçərək günümüzə qədər gəlib çatmış ən köklü adətlərimizdən biri də qonaqpərvərlik ənənəsidir. qonaqpərvərlik adəti hər zaman ən mükəmməl şəkildə yerinə yetirilmişdir. Buna görə də qonaqpərvərlik xalqımızın ən dəyərli xüsusiyyətlərindən biri hesab olunub.

Şifahi xalq poeziyasında önəmli yer tutan ailə məişət nəğmələri formaca müxtəlif və rəngarəng olur. Məişət mərasimlərinə aid olan milli bədii nümunələr-nəğmələr, mahnılar, oyunlar, xorlar, halaylar, laylalar, oxşamalar folklorun geniş yayılmış janrlarındandır [1, s. 39]. Folk - xalq, lor isə bilik, hikmət anlamındadır. Layla və oxşamalarda ananın körpə balasına olan məhəbbəti, övladının gələcəyinə ümid və arzular bəsləməsi ifadə olunur. Ailədə uşağın dünyaya gəlməsi şad xəbər olaraq həmin ailəyə sevinc və xoşbəxtlik gətirir. Bu ailə isə

öz maddi imkan çatan qədər şənlik keçirər və həmin körpənin şəninə nəğmələr deyərək şadlıq edərdi. Bu nəğmələr vaxtında qələmə alınmadığı üçün çox az hissəsi bu günümüzə qədər gəlib çatmışdır. Yalnız müəyyən hissəsi hal-hazırda xalq arasında yaşamaqdadır.

Azərbaycan xalq ədəbiyyatında mərasim nəğmələrinin böyük bir hissəsi məişət mərasimləri zamanı yaradılmışdır. Ailə-məişət mərasimi ilə bağlı oxunan nəğmələr də müəyyən hadisə və s. ilə bağlı olub, xalqın sevincini, kədərini, arzularını paylaşan nəğmələr kimi diqqəti çəkir. Ailə-məişət mərasim nəğmələri dedikdə ananın körpə balasına dediyi şirin, xoş nəğmələr, adqoyma mərasimləri də nəzərdə tutulur.

Bildiyimiz kimi, uşağın anadan olmasının qırxıncı günü uşaq çimizdirilir və onun başından su tökərək, pak etmək məqsədi ilə ana şeir oxuyardı:

Ağırlığın-uğurluğun,
Dağlara- daşlara,
Göydə uçan quşlara,
Yerdəki ağaclara.
Ömrün uzun uzansın,
Bəxtin qızıl yazılsın.
Xızır sənə su versin,
Üzün həmişə gülsün. [2, s. 104]

Yuxarıda yazılmış bu nəğmə xalq arasında müxtəlif cür səslənsə də, eyni məqsədlə deyilmişdir. Böyük ehtimal ki, ilk insanların təcrübəsi nəticəsində meydana gəlmiş bu mərasimin tarixi daha qədimdir. Qeyd etdiyimiz kimi, bu mərasimlərin hər birinin özünə məxsus funksional xüsusiyyətləri vardır. Qadının sağlamlığı və körpənin həyata qədəm qoyması, oğul olarsa atanın kürəyi, qız olarsa evin ələyi olması kimi tərənnüm edilir [4, s. 50].

Elə ona görə də qırx gün anaya xüsusi diqqət göstərilirdi. Qırx gün tamamlanandan sonra ana uşağın həyatında dəyişiklik olduğunu duyub hiss etmişdir. Özü kimi uşağı da "təmizliyə çıxarmaq, fənalıq divlərini" məhv etmək, qovmaq, beləliklə, təbiətə təsir göstərmək, xəstəlikləri əfsunlamaq üçün həmin nəğməni oxumaqla öz sözlərinin təsir gücünə inanmışdır. Oxunan nəğmədə " Xızır sənə su versin" misrası dirilik suyuna işarədir. Ana öz doğma balasına ölümsüzlük arzusu ilə "Xızırı" köməyə çağırır.

Şifahi xalq ədəbiyyatında əsas yer tutan laylalar mövzu cəhətdən çox rəngarəngdir. Ana öz körpə balasına xoşbəxtlik və səadət arzulayır. Bu da körpənin elə beşikdəcə böyüyüb boya-başa çatmasında öz əksini tapır və körpəninin sevgi ilə böyüməsinə zəmin yaradır [3, s. 105]. Belə bir atalar sözü də var: "Balalı ev bazardı, balasız ev məzardı", "Uşağsız ev susuz dəyirmandır".

Ailə-məişət mərasimlərinin bir qolu da adqoyma mərasimində söylənilən nəğmələrdir. Ançaq adqoyma mərasiminin nəğmə ilə müşayiət olunması ta qədimdən " Kitabi Dədə Qorqud" dastanında öz əksini tapmışdır. Məs: Dədə Qorqud ad qoyduğu gənc üçün onun atasından bəylik, taxt, boynu uzun bədoy at, çiyni quşlu cubbə don istəyir. Dastanda verilən bu misralar nəğmə formasında Dədə Qorqudun ifasında oxunur. Adqoyma mərasimində oxunan nəğmələrin məzmununda uşağı yad ruhlardan qorumaq, eyni zamanda qoyulan adın İlahi qüvvələr tərəfindən bəyənilməsi arzusu hiss olunur [3, s. 51].

Ailə-məişət mərasimləri müxtəlif və məhdud olur. Bu mərasimlər dünya xalqlarının folklorunda olduğu kimi poeziya nümunələrinə aid olaraq, şəkli cəhətdən fərqli, mövzu etibarı ilə çox rəngarəngdir. Cəmiyyət inkişaf etdikcə adət-ənənələr, vərdişlər, xarakterlər yeniləşərək dəyişir və inkişaf edir. Məlumdur ki, cəmiyyətin ilk pillələrində və daha sonrakı dövrlərdə, məsələn, quldarlıq və feodalizmin ilk dövründə ailə qurmaq, evlənmək son əsrlərdə olduğundan çox fərqli olmuşdur.

Xalqımızın lap qədimdən bəri yaşadıb qoruduğu zəngin və rəngarəng toy adətləri içərisində xınayaxdı mərasimi də var. Xınayaxdı mərasimi uzun zaman qeyd olunaraq bu gün

də icra olunmaqdadır. Qırmızı libas geyinərək, ələ xına yaxmaq sevinc və xoşbəxtlik rəmzidir [6, s. 55].

Ailə-məişət mərasimlərində xüsusi yer tutan, el-obamızın gözəl adətlərindən biri də toy mərasimidir. Toy mərasimlərinin özünəməxsus adət-ənənələri vardır. Bu mərasimin əsas kökləri qızı nişan verən nəğmədən başlayır. Bu nəğmələrdə qızın gözəlliyi, əsli-nəsli, evdarlığı tərənnüm edilir, oğlan evi ilə qız evinin bir-birinə tən olması söylənilir. Toy mərasiminə aid olan ən qədim adət kimi oğlanın qıza, qızın isə oğlana alma atmasını qeyd etmək olar. Almanın yerdən götürülməsi isə razılıq əlaməti kimi dəyərləndirilmişdir [4, s. 52].

Azərbaycan folklorunda toy mərasiminin başlanmasına qədər aparılan hazırlıq mərhələləri müəyyən dərəcədə sabit qalmış və dövrümüzə qədər gəlib çatmışdır. Toy mərasiminin başlanmasına qədər aparılan hazırlıq onu deməyə əsas verir ki, xalqımız yeni qurulan ailə təməlinin möhkəm olmasına çalışmışdır.

Əvvəllər toy şənliyinə (xüsusilə kənd yerlərində) qonşu el-obalardan adamlar dəvət olunardı. Bu şənlikdə böyükdən kiçiyə kimi hamı iştirak edirdi. Toy şənliklərində xalqımızın uzaq keçmişindən xəbər verən bəzi adət-ənənələri xüsusi yer tutur. Bu adətlərdən biri də "cıdır"adlanan bir oyundur. Cıdırda birincilik qazanan oğlana bəyin bacısı və anası tərəfindən qiymətli hədiyyə verilərdi. Bu, sadəcə at oynatmaq əyləncəsi deyil, sanki bir məşq meydanı idi [4, s. 107].

Cıdırda elin, obanın qocaq, qəhrəman oğulları iştirak edərdi. Maraqlısı o idi ki, cıdır adlanan bu oyunda at üstündə cürbəcür oyunlar göstərirdilər. Cıdırla yanaşı toy şənliklərində güləşçilərin güləşməsi də diqqəti cəlb edirdi. "Kitabi Dədə Qorqud" dastanında belə bir toy səhnəsi var: " Bir gün Qamğan oğlu xan Bayandır yerindən durmuşdur. Şamı günlüyü yer üzünə tikdirmişdir. Ala seyvanı göy üzünə aşanmışdır, min yerdə ipək xalçası döşənmişdir. Xanlar xanı xan Bayındır ildə bir dəfə toy edər, oğuz bəylərini qonaq çağırardı. Çıdır meydanı düzələr, ox atma yarışı keçirilərdi. Yenə toy edib atda ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdurmuşdur. Oğlu olan ağ otağa, qızı olan qızıl otağa, kimin ki qızı oğlu yoxdursa qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən özünə gətirin; yeyərsə yesin, yeməzsə dursun getsin, - demişdir. "Oğlu-qızı olmayanı Allah-Təala qarğayıbdır", - demişdir [3, s. 104].

Xalqımızın mədəniyyətində, ailə-məişət mərasimlərində xüsusi yer tutan, milli-mənəvi dəyərlərimizlə bağlı adət və ənənələrimizdən biri də qonaq qarşılamadır. Qonaq qarşılama adət-ənənələri, əsrlərin-nəsillərin sınağından keçərək, bu günümüzə qədər gəlib çatmışdır. İlk baxışdan sadə görünən qonaq qarşılama adəti özünə məxsus çəhətlərə malik olmaqla, mürəkkəb xarakter daşıyır. Elə buna görə də qonaq qarşılama adəti, çox məsuliyyətli bir iş sayılır. Xalq öz həyatının canlı lövhələrini, məişət tərzini qonaqpərvərlikdə yaşatmış və onu davam etdirməyə çalışmışdır. Qonaqpərvərliyin mahiyyətində dostluq, səmimiyyət, şəfqət, mehribanlıq, ehtiyacı olana əl tutmaq, yardım etmək kimi yüksək insani keyfiyyətlər durur. Bu kimi keyfiyyətlər müəyyən adət və ənənələrin icrası və davranış qaydalarında öz əksini tapır. Bu isə ev sahibinin mənəvi keyfiyyətlərinin aynasıdır. Azərbaycanda qonaqpərvərlik adəti hər zaman ən mükəmməl şəkildə yerinə yetirilmişdir. Qonağın qarşılanması, saxlanması və yola salınması ilə əlaqədar görülən işlərin yerli-yerində həyata keçirilməsi ev sahibindən böyük səy və diqqət tələb edir [6, s. 245].

Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsi olan "Kitabi-Dədə-Qorqud" dastanınında da qələmə alındığı kimi türk xalqları və o cümlədən azərbaycanlılar həmişə geniş qəlbli, açıq ürəkli, nəcib, xeyirxah, əməli uca, qeyrətli, dəyanətli və yenilməz olublar. Bütün əməllərində halallığı uca tutublar, mənəvi zənginliyi heç vaxt itirməyib, öz nüfuz və ləyaqətlərini qoruyub saxlayıblar. Ədəb-ərkan, qonaq qarşılama ənənəsi bu yurdun qədim adəti idi. Qonaq gələndə qazanlar asılar, dadlı-ləzətli xörəklər hazırlanardı. Darcınlı, zəfəranlı, mixəkli, zəncəfilli

təamların ətri həyət-bacanı bürüyərdi. Xalqımıza məxsus olan adətlərdən biri də “Çörəkkəsdi” adəti də olub. Böyüklərimiz süfrələrində olan halal çörəklə fəxr eləyiblər. Qonaqla kəsilən çörəyi yüksək əxlaqi meyar, düzgünlük və dürüstlük, paklıq rəmzi sayıblar. Halal çörək kəsilən yerdə xəyanət olmaz, deyiblər.

Qədim zamanlarda Gəncədə olan adət-ənənələrdən biri də, evə gələn qonağın süfrənin yuxarı başında əyləşdirilməsi idi. Qonağın yanında evin böyüyü, ehtiram sahibi olan ağsaqqallar və hörmətli şəxslər otururdular. Söhbəti yalnız böyüklər apara bilərdilər. Qonağa çoxlu suallar verməк, gəlişinin məqsədini soruşmaq və nə zaman gedəçəyi ilə maraqlanmaq ev sahibi üçün ədəbsizlik sayılırdı. Evə gələn qonaqla söhbəti yalnız böyüklər edərdi. Qonaqlıq zamanı məclis başında çox danışmaq düzgün sayılmırdı. Çünki hər kəs öz yerini bilməli idi. Ev sahibi qonaqlıq süfrəsində olan yeməklərin müxtəlif olmasına diqqət yetirirdi. Gələn qonaq üçün açılan süfrə daha ləziz, bol yemək növləri ilə bəzədilərdi və adi günlərdə olduğundan fərqlənərdi. Süfrəyə içkilərdən şərbət, ayran və bəzi hallarda şərab da verilərdi. Qonaq üçün açılan süfrədə yeməklərdən əsasən düyü və ət xörəkləri üstünlük təşkil edirdi. Xörəklərlə bərabər süfrəyə müxtəlif göyərti də verilirdi. Şirniyyat süfrəsinə isə müxtəlif milli şirniyyatlardan başqa çürbəçür mürəbbələr və meyvələr də düzülürdü. Bunlar həm Gəncə el-obasına təşrif buyurub qonaq gələn ev sahibi üçün, yüksək səviyyədə qonaq qarşılanması və onun üçün süfrə açmaq mədəniyyətini göstərirdi. Yalnız qonağın özü öz şəxsiyyəti haqqında məlumat verdikdən sonra gəlişinin məqsədini bəyan edərdi. Bundan sonra ailənin bütün üzvləri ona lazım olan şeylərin əldə edilməsi işində köməklik edərdilər. Məlumdur ki, qonaqların rahatlığının təmin olunması, hər şeyin nizama salınması, yemək tədarükünün görülməsi, səliqə-səhman yaradılması bir adamın öhdəsinə düşmürdü. Evin nizama salınmasında, qonaqların qarşılanmasında və qəbul edilməsində ailə üzvülərinin hərəsinin özünə məxsus vəzifəsi olurdu.

Xalqımızın ailə-məişət mərasimlərinə aid olan, Qədim Şərq ölkələrində geniş yayılmış, dərin tarixi köklərə malik olan Novruz bayramı və onun adət-ənənələridir. Novruz tarixin ən ünlü laylarından, qatlarından süzülüb gələn mifoloji təsəvvürlərin zahirən son dərəcə sadə görünən toplusudur. Bu toplumda qədim insanların inam və etiqadları öz əksini tapmışdır. Bu bayram ilkin mifoloji təsəvvür və inamları özündə yaşadan müxtəlif ayinlər, mərasimlər, oyunlarla keçirilir.

Novruz bayramının tarixində gizlənən xalq hikmətini açdıqda, hər şeydən əvvəl Xıdır Nəbi bayramına diqqət yetirmək lazım gəlir. Çünki Xıdır Nəbi Novruz bayramına hazırlıqdır. Bu bayramın müjdəçisidir [5, s. 10]. Novruz daim yeniləşən bayramdır. Bu bayramda insan ruhən saflaşır, oyanır və yeni həyata başlayır. Novruzda ilahi tarazlıq yaranır: gecə ilə gündüz bərabərləşir [5, s. 15].

Novruz çərşənbələrinə el arasında cəmlələr də deyilir. “Cəmlə”-cəm olmaq, birlik mənasını bildirir. Bu bayramdan əvvəl dörd ilahi başlanğıc - su, od, yel, torpaq birləşərək çəmlənir. Xalqımızın bu dörd çərşənbələrində keçiriləcək özünə məxsus adət-ənənələri də var. Su çərşənbəsi-suyun oyanışıdır. Bu çərşənbəyə yalançı çərşənbə və ya əzəl çərşənbə də deyilir. Su çərşənbəsində keçirilən adətlərdən biri də o olmuşdur ki, insanlar gün doğmamış axar suyun üstünə gedərlər, su aydınlıqdır deyib bir-birinin üzərinə su çiləyərlər. İkinçi çırşənbə Od çərşənbəsidir. Bu çərşənbədə oda olan keçmiş inam və mifoloji təsəvvürlərə görə müəyyən mərasimlər, şənliklər keçirilmişdir. Od çərşənbəsində tonqal qalayarlar və üstündən hoppanardılar. Novruz çərşənbəsinin üçünçüsü Yel çərşənbəsidir. Yel baba yatmış torpağı silkələyərək oyadır və cana gətirir. Ən axırınçı olan çərşənbə isə Torpaq çərşənbəsidir. Bu çərşənbəyə həm də, ilaxır çərşənbəsi də deyilir. Sonuncu çərşənbə əvvəlki üç çərşənbəyə nisbətən daha təmtaraqlı keçirilir. Bu çərşənbədə hamı təzə libas geyinir, əl-ayağa xına yaxar, su falına baxar, qapı pusardılar. İlaxır çərşənbədə cavanlar axşamacan halay oyunu oynayardılar [6, s. 39].

Başqa xalqların həyatında olduğu kimi, xalqımızın ailə və məişət mərasimiləri çox zəngindir. Bu mərasimlər xalqımızın fəlsəfi, əxlaqi və ictimai görüşlərində mühüm əhəmiyyəti olan atəşpərəstlik və onun qanuni kitabı olan "Avesta" ilə qırılmaz əlaqədardır. "Avesta" da irəli sürülən fikirlərə görə, qədim nağıllar da, dastanlar da, adət-ənənələr də əsrimizə qədər gəlib çatmışdır. Qədim dünyanın əzəmətli abidəsində babalarımızın adət-ənənəsi, həyat və cəmiyyət haqqında düşüncələri əks olunmuşdur.

*Nəticə*

"Azərbaycan xalq mədəniyyətində ailə-məişət mərasimləri" mövzusu Azərbaycan xalqının ailə həyatı ilə bağlı adət və ənənələrini öyrənir. Ailə üzvləri arasında qarşılıqlı hörmət və münasibətlər, uşağın dünyaya gəlməsi, adqoyma mərasimləri, bayramda keçirilən mərasimlər, toy adətləri və bütün keçirilən bu mərasimlər, xalqımızın milli mənəvi dəyərlərini, adət-ənənələrini və həyat tərzini əks etdirir. Nəsildən-nəsilə ötürülən bu ənənələr Azərbaycan xalqının mədəniyyətinin mühüm hissəsidir.

ƏDƏBİYYAT


1. Mərasimlər, adətlər, alğışlar, Bakı, Gənclik, 1993. 352 səh.
2. Vəliyev. V. Azərbaycan folkloru. " Maarif" Nəşiyyat, Bakı, 1985. 415 səh.
3. Vəliyev. V. Azərbaycan şifahi xalq ədəbiyyatı, ADU Nəşiyyyatı, Bakı, 1970. 341səh.
4. Əliyev. R. Azərbaycan şifahi xalq ədəbiyyatı. "Elm və təhsil", Bakı, 2019. 170 səh.
5. Novruz adət-ənənələri, Gəncə, "Elm" nəşriyyat, 2011. -98 səh.
6. Bünyadova Ş. "Orta əsr Azərbaycan ailəsi". Bakı-2012, "Elm" nəşriyyatı, 384 səh.


УДК 80

*Эльмира Магеррам кызы Ширинова*
*Айнура Кямран кызы Алиева*
*Гянджинское Отделение НАНА*

## СЕМЕЙНО-БЫТОВЫЕ ОБРЯДЫ В АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ КУЛЬТУРЕ

*РЕЗЮМЕ*

*Ключевые слова*: семья, семейно-бытовые обряды, обычаи и традиции, обряд наречения именем

Семейно-бытовые обряды занимают важное место в устном народном творчестве. Эти обряды отличаются разнообразием своих форм и содержания. Колыбельные (лайлалар) и пестушки (охшамалар) являются одними из самых распространенных видов бытовых песен. В азербайджанской народной литературе большинство обрядовых песен возникло именно в ходе семейно-бытовых ритуалов. Песни, связанные с семейно-бытовыми обрядами, связаны с определенными обычаями, традициями и событиями. В этих песнях находят свое выражение радость, печаль и чаяния народа. Определенная часть бытовых обрядовых песен связана с обрядом наречения именем. В целом, наречение именем считается одним из важных мотивов в фольклоре. Считается, что данный обряд имеет древнее происхождение и существовал в жизни людей с самых ранних времен. Встреча гостей - один из древних и важных обычаев азербайджанского народа. Пройдя испытание временем, эта традиция дошла до наших дней. Хотя прием гостей кажется простым делом, на самом деле он требует

большой ответственности. Хозяин дома должен хорошо встретить гостя, проявить к нему внимание и с уважением проводить его. Именно поэтому гостеприимство считается одной из самых ценных черт азербайджанской культуры.

UDC 80

*Elmira Maharram Shirinova*
*Aynura Kamran Alieva*
*Ganja Branch ANAS*

FAMILY AND HOUSEHOLD CEREMONIES IN AZERBAIJANI NATIONAL CULTURE
*SUMMARY*

*Keywords*: family, family and household ceremonies, songs, traditions, naming ceremony

Family and household ceremonies occupy an important place in oral folk literature. These ceremonies are distinguished by their diverse forms and content. Lullabies (laylalar) and caressing songs (oxşamalar) are among the most widespread genres of domestic ceremonial songs. In Azerbaijani folk literature, the majority of ceremonial songs emerged within the framework of family and household ceremonies. Songs associated with these ceremonies are directly linked to specific customs, traditions, and social events. These songs express the joy, sorrow, and aspirations of the people. A certain part of domestic ceremonial songs is associated with naming ceremonies. In general, naming is considered one of the important motifs in folklore. It is believed that this ceremony dates back to ancient times and has existed in people's lives for centuries. Welcoming guests is one of the ancient and respected customs of the Azerbaijani people. Having stood the test of time, this tradition has survived to the present day. Although welcoming a guest may seem simple, it actually requires great responsibility. The host must welcome the guest warmly, show attention, and see them off with respect. Therefore, hospitality is considered one of the most valuable characteristics of Azerbaijani culture.

***Daxil oldu: 10.06.2026-cı il***